Ədəbiyyat qəzeti

13 mart / 2021

# Nəriman Həsənzadəyə məktub

Müasir Azərbaycan poeziyasında xüsusi yeri və çəkisi olan, poeziyamızın görkəmli simalarından biri, sevimli lirik şairimiz Nəriman Həsənzadənin 90 yaşı tamam olur. 90 illik yubileyi münasibətilə ağsaqqal və nəğməkar şairimizi ürəkdən təbrik edir, ona möhkəm cansağlığı, yaradıcılığında uğurlar arzu edirəm.

Təqdirəlayiq haldır ki, Nəriman müəllimin xarakterindəki ziyalılıq, həlimlik, kövrəklik, həzinlik, duyğusallıq bütünlüklə yaradıcılığına da hopub. Bu mənada onu çox haqlı olaraq anadangəlmə şair adlandırırlar. Yaradıcılığında məhəbbət mövzusu üstünlük təşkil etsə də, vətənpərlik ruhu, torpağa bağlılıq motivləri də güclüdür. Onun şeirlərində qəlbin, ruhun sözləşməsi həmişə yüksəkdə olub - bütün şeirləri, sanki ruhumuzu yerindən oynadan qəlb çırpıntılarıdır.

Nəriman müəllim sözün həqiqi mənasında Vətən torpağı uğrunda döyüşən bir əsgərdir. Yaradıcılığından da görünür ki, vətən aşiqidir, millətinin hədsiz vurğunudur, şeirlərində saz ruhu, ana laylası var. Çünki onun ruhu dağlardan, sazlı-sözlü bir diyardan - Qazaxdan gəlir. Qələmindən çıxan şeirləri daha çox oxucusunu düşündürən, ona sevib-sevilməyi, ədaləti, yurda bağlılığı təlqin edən, dərin məna üstündə köklənən ürək yanğılarıdır. Onun poeziyasını oxunaqlı edən də, sevdirən də elə məhz budur. Bu yanğını yalnız sözün dəyərini qiymətləndirənlər hiss edə bilərlər.

Əziz Nəriman müəllim, Sizi bir daha təbrik edirəm, yubiley yaşınız mübarək!

**İlham RƏHİMOV**,

*Qara dəniz və Xəzər dənizi Regionu Ölkələri Hüquqşünasları Assosiasiyasının prezidenti, Azərbaycanın Əməkdar hüquqşünası, hüquq elmləri doktoru, professor*